

Dünyanın ən böyük dərsi

*“Hər birimizin cəmiyyət üçün nə isə etməliyik. Müəllim kimi biz gənc beyinlərdə mənəvi dəyərlər formalaşdırmaq məsuliyyəti daşıyırıq, çünki onlar qlobal iqtisadiyyatın gələcəyini təmsil edəcəklər”*

**Kanaka Durga**
Oakridge Beynəlxalq Məktəbi, Hindistan

# Qlobal yoxsulluq yerli səviyyədə aradan qaldırıla bilər

## Fənn

Tarix, Coğrafiya

## Təlim nəticələri

- Hindistanda və Heydarabadda yoxsulluğun səbəblərini anlamaq.
- Yoxsulluğun azaldılmasında bilik və bacarıqların vacibliyini dəyərləndirmək.
- Heydarabadda ayda 3 min rupiyə yaşayan insanların gəlir səviyyəsinin artırılması üçün üsülları öyrənmək.

## Hazırlıq

- Əlavə 2-də olan şəkilləri çap etmək və ya nümayiş etdirmək.
- Əlavə 3-də olan həyati situasiyaları çap etmək və ya internet linklərdən istifadə etmək.

## Müəllim üçün qeyd

Bu dərs icmalı yoxsulluğun tərifini verir və təhsil dəyərlərinə fokuslanaraq onun həlli yollarını göstərir. Bu icmalın əsas ideyası Heydarabadda cəmlənir, çünki onun müəllifi orada yaşayır. Bu dərs yoxsulluq və qeyri-bərabərlik olan hər hansı bir şəhərdə keçirilə bilər. Dərs boyu müəllim şagirdləri yerli ərazilərin və şəhərlərin müqayisəsinə təşviq edir.

Ümumi vaxt:

**60** Dəq.

Yaş:

**11-14** yaş

1 YOXSULLUĞA SON

“Dünyanın ən böyük dərsi” – Birləşmiş Millətlər Təşkilatı tərəfindən qəbul edilmiş dayanıqlı inkişaf məqsədlərinin elan edilməsi ilə əlaqədar birgə təhsil layihəsidir. Bu layihə 17-ci məqsədin -“Dayanıqlı inkişaf naminə tərəfdaşlıq” məqsədinin mühümlüyünün canlı sübutudur və onun gercəkləşdirilməsi bizimlə və biri-biri ilə əməkdaşlıq edən tərəfdaşlarımızın köməyi olmadan mümkün olmazdı.

Layihənin təşkilatcılar qrupuna təşəkkür edirik:

Powered By:

Distributed By:

Translated By:

Dünya üzrə bizimlə işləyənlərə xüsusi təşəkkürlər:

“Qlobal düçüncə” təşkilatının əməkdaşlığı ilə hazırlanmış dərs planları (Think Global) www.thinkglobal.org.uk.
Ədalətli və dayanıqlı sülhün təmin edilməsi məqsədi ilə təlimin təbliği.

## Təlim fəaliyyəti

5 Dəq.

Yoxsulluğun tərifi ilə başlayın, məsələn, son dərəcə yoxsulluq, nisbi yoxsulluq. Şagirdlər üçün tərifi oxuyun və ya göstərin. Şagirdlərə izah edin ki, onlar bu dərsdə yoxsulluğun səbəbləri və yerli səviyyədə mümkün həlli barədə düşünəcəklər.

Hindistanın yoxsulluq üzrə statistikasını şagirdlərə paylayın. Siz hər bir statistika üzrə düzgün variantı seçməyi onlardan xahiş edə bilərsiniz və ya sorğu (düzgün/yanlış) apara bilərsiniz.

Hindistanda kəndlərdə 25,7%, şəhərlərdə 13,7%, ölkə üzrə isə 21,9% əhali yoxsulluq içərisində yaşayır.

Mənbə: http://indiamicrofinance.com/poverty-in-india-2014-facts-report-pdf.html

Hindistan dünyada üçüncü kasıb ölkədir və hindlilərin 32%-dən çoxu günə 1,25 ABŞ dollarına (son dərəcə yoxsulluq şəraitində) yaşayırlar.

Mənbə: http://apecsec.org/poverty-in-india-statistics/

## Diferensiasiya və alternativ tapşırıqlar

Siz alternativ olaraq sinifdə yoxsulluğun seçilmiş təriflərini (son dərəcə yoxsulluq, nisbi yoxsulluq) nümayiş etdirə bilərsiniz. Şagirdlər sinifdə gəzərək onları oxusunlar. Sonra şagirdləri bir araya toplayın və bir neçə şagirddən təriflərlə bölüşməyi xahiş edin.  Şagirdləri təriflərdə olan fərqliliyi və onların müxtəlifliyinin səbəblərini müzakirə etməyə həvəsləndirin. (Əlavə 1)

## Təlim fəaliyyəti

10 Dəq.

Şagirdlərə əvvəl Heydarabadın Köhnə şəhər ərazisində yaşayan insanlarının şəkillərini, sonra isə fast-fud restoranları olan böyük ticarət mərkəzlərinin, Heydarabadın Yüksək texnologiyalar ərazisində yerləşən binaların şəkillərini göstərin.  (Əlavə 2)

Şəkil linkləri:

Köhnə Heydarabad

https://www.flickr.com/photos/50732394@N02/8158207924
https://www.flickr.com/photos/74821492@N00/6896867445
https://www.flickr.com/photos/74821492@N00/9470586297
https://www.flickr.com/photos/74821492@N00/15355987635
https://www.flickr.com/photos/pherrari/5722854256
https://www.flickr.com/photos/74821492@N00/9473365526

Yeni texnologiyalar şəhəri və ticarət mərkəzləri:

https://www.flickr.com/photos/abhiomkar/6718775877
https://www.flickr.com/photos/adityakolli/5654448428
https://www.flickr.com/photos/listenersvision/5782124788
https://www.flickr.com/photos/rahulgod/5302861636
https://www.flickr.com/photos/kalyan3/2079888937

Əlavə 2-ə baxın.

Aşağıdakı sualı  qısa müddət ərzində cütlərdə müzakirə etməyi və  hazır olduqda ideyalarını siniflə bölüşməyi şagirdlərdən xahiş edin:

Siz Köhnə şəhər və Yüksək texnologiyalar şəhəri arasındakı fərqlərin səbəbini  tapa bilərsiniz?

Məsələn, təhsil / əhali / mədəniyyət / gender/ nəqliyyat / yaşayış yerləri / çox pis əmək şərtləri / infrastruktur.

## Diferensiasiya və alternativ tapşırıqlar

Alternativ olaraq siz şəkillər üzrə cütlərlə işləyərək  hər iki ərazinin oxşarlığını və fərqini müəyyənləşdirməyi şagirdlərə təklif edə bilərsiniz. Həmçinin şagirdlərdən hər şəkil üzrə sual verməyi xahiş edə bilərsiniz.

Kiçik yaşlı və daha zəif şagirdlərin müzakirəsini dəstəkləmək üçün onlara açar sözlər verə və ya şəkillər göstərə bilərsiniz.

## Təlim fəaliyyəti

30 Dəq.

Yoxsulluq şəraitində yaşayan insanlar üçün problemin müxtəlif mümkün həlli istiqamətləri barədə düşünməyi şagirdlərdən xahiş edin. Əvvəlki tapşırıq zamanı şagirdlərin müəyyənləşdirdikləri hər səbəbin həlli yolunu tapmağa çalışın.

İdeyaları şagirdlərin görə biləcəyi yerlərdə qeyd edin.

Bu dəyişikliklərdə dövlətin, QHT-lərin və biznesin rolu barədə şagirdləri düşünməyə sövq edin.

Yoxsulluqla mübarizə aparan, təhsil  səviyyəsini və bacarıqları inkişaf etdirən həyati situasiyalar və yerli layihələr ilə bölüşün. Şagirdlərə həyati situasiyaları oxumaq və fikirlərini siniflə bölüşmək üçün 5 dəqiqə vaxt verin.

Həyati situasiyalar üçün Əlavə 3-ə baxın:

Poverty Learning Foundation: http://www.plf.org.in/vision.html
Kriti scholarships: http://www.kriti.org.in/scholarships.html
Mahita empowerment project: http://www.mahita.org/projects.html

Aşağıdakı sualları müzakirə etməyi şagirdlərdən xahiş edin:

- Gəlirlərin artırılmasında təhsilin və bacarıqların hansı rolu var?
- Şagirdlər yoxsulluq şəraitində yaşayan insanlara pul verməк barədə nə düşünürlər?
- Bu sualı yazılı cavablandrmağı şagirdlərdən xahiş edin. Onların fikirlərini izah etmək və genişləndirmək üçün cavablarda yerli nümunələr olmalıdır.

## Diferensiasiya və alternativ tapşırıqlar

Alternativ olaraq şagirdlərə bir neçə həll yolları göstərin və bu üsulların yoxsulluq səviyyəsinin azadılmasında rolunu göstərməyi onlardan xahiş edin (bu, bir neçə sadə cümlə, kiçik məqalə, həyati situasiya və şəkil ola bilər).

## Təlim fəaliyyəti

15 Dəq.

Şagirdlərdən yaşadıqları ölkədə yoxsulluq olan şəhər və ərazilər haqqında düşünməyi  xahiş edin.

Aşağıdakı sualları müzakirə etməyi şagirdlərdən xahiş edin:

- Onların seçdikləri şəhərdə hər kəsin yaşayış səviyyəsi eynidirmi?
- Əgər deyilsə, niyə bərabərsizlik mövcuddur?
- Onlar seçdikləri şəhərdə yoxsulların yaşayış səviyyəsinin yüksəldilməsi üzrə həll yollarını bilirlərmi? (Onlara əlavə məlumat və ya internetə çıxış lazım ola bilər.)

Bu sualları müzakirə etmək üçün şagirdləri bir araya toplayın.

## Diferensiasiya və alternativ tapşırıqlar

Şagirdlər yoxsulluğu yerli, milli və qlobal səviyyədə azalda bilən layihələrlə tanış ola və onları müqayisə edə bilərlər.

### Qlobal Məqsədlərə çatmaq üçün fəaliyyətə başlayın

Müəllim olaraq sizin şagirdlərin müsbət enerjisini düzgün istiqamətləndirmək və onları aciz olmadıqlarına, dəyişikliyin mümkün olduğuna inandırmaq imkanınız var.

“Design for Change” hərəkatı tərəfindən keçirilən “Mən bacarıram” məktəb müsabiqəsi uşaqları əməkdaşlığa çağıraraq öz ətraflarında dəyişikliklər etməyə və öz təcrübələrini dünyadakı uşaqlarla bölüşməyə dəvət edir.

Başlamaq üçün www.dfcworld.com  saytına daxil olun.

“Design for Change”in dərslər və ya şagirdlərə sərbəst fəaliyyətləri üçün www.globalgoals.org/worldslargestlesson sayta daxil olun.

**Əlavə 1**

Yoxsuluğun tərifi

Dünya Bankının məlumatına görə son dərəcə yoxsulluq gündəlik tələbatların 1.25 dollara və ondan az məbləğə ödənilməsidir.
Son qiymətləndirməyə əsasən 2011-ci ildə inkişaf etməkdə olan ölkələrdə əhalinin 17%-i bir günə 1.25 dollardan az məbləğə yaşayır.

**http://www.worldbank.org/en/topic/poverty/overview.**

Nisbi yoxsulluq cəmiyyətdə insanların orta yaşayış səviyyəsinin saxlanılması üçün gəlirin minimal həddinin çatışmamazlıq vəziyyətidir. Nisbi yoxsulluq ayrı-ayrı ölkələrdə yoxsulluq səviyyəsinin qiymətləndirməsi üçün ən asan üsuldur.

**http://study.com/academy/lesson/what-is-relative-poverty-definition-causes-examples.html**




Köhnə şəhər - Heydarabad, Hindistan
Mənbə: https://www.flickr.com/photos/50732394@N02/




Köhnə şəhər - Heydarabad, Hindistan
Mənbə: https://www.flickr.com/photos/pamnani/



Köhnə şəhər - Heydarabad, Hindistan
Mənbə: https://www.flickr.com/photos/pamnani/

Küçə yeməyi - Samosa (Charminar)



Köhnə şəhər - Heydarabad, Hindistan
Mənbə: https://www.flickr.com/photos/74821492@N00/15355987635

Haleem yeməyinin hazırlığı 2012




Köhnə şəhər - Heydarabad, Hindistan
Mənbə: https://www.flickr.com/photos/pherrari/5722854256

Mozamjahi Bazarı




Köhnə şəhər - Heydarabad, Hindistan
Mənbə: https://www.flickr.com/photos/74821492@N00/9473365526

Bonalu bayramı (2013)




Yeni texnologiyalar şəhəri və ticarət mərkəzləri
Mənbə: https://www.flickr.com/photos/abhiomkar/6718775877

Heydərabad



Yeni texnologiyalar şəhəri və ticarət mərkəzləri
Mənbə: https://www.flickr.com/photos/adityakolli/5654448428

Durgam Cheruvu (Sirlər gölü)




Yeni texnologiyalar şəhəri və ticarət mərkəzləri
Mənbə: https://www.flickr.com/photos/listenersvision/5782124788

Yeni texnologiyalar şəhəri, Heydərabad



Yeni texnologiyalar şəhəri və ticarət mərkəzləri

Mənbə: https://www.flickr.com/photos/rahulgod/5302861636

Heydərabad ticarət mərkəzi




Yeni texnologiyalar şəhəri və ticarət mərkəzləri
Mənbə: https://www.flickr.com/photos/kalyan3/2079888937

# Yoxsulluğun Öyrənilməsi Fondu (PFL) http://www.plf.org.in/vision.html

Hindistanın Uttar Pradeş əyalətində yerləşən müstəqil təşkilatdır, insanlara və təşkilatlara yoxsulluğun davamlı azaldılmasına istiqamətlənmiş ideya və fəaliyyətləri araşdırmağa kömək edir.

Bu təşkilata Hindistanda yoxsulluğun azaldılması üzrə layihələrdə təcrübəyə malik peşəkar komanda rəhbərlik edir və o, yoxsulluğun azaldılması siyasəti və praktikası barədə insanların maarifləndirilməsi zərurətindən yaradılıb.

Onun işinin böyük hissəsini insanların dolanışığı kimi sahələrin araşdırılması təşkil edir. Eyni zamanda bu təşkilat hökumət, özəl sektor, kütləvi informasiya vasitələri və vətəndaş cəmiyyəti ilə əlaqə saxlamağa çalışır.

# Kriti təqaüdləri http://www.kriti.org.in/scholarships.html

Kriti 2009-cu ilin avqust ayından etibarən Heydarabad şəhərindəki Filmnagar xarabalığında 4000 ailəyə himayədalıq edən qeyri-kommersiya təşkilatıdır. Bu fəaliyyət özəl sektor mütəxəssisləri tərəfindən başlanmış, diqqətini qadınlarla iş, yəni qadınların dolanışığını əhatə edən bir sıra layihələr, uşaqların təhsili və gender məsələləri üzərində cəmləmişdir.

Kriti təqaüd proqramı xarabalıqlarda yaşayan uşaqlarla işləyir, onların təhsildən üzaqlaşmamasını, pulsuzluqdan məktəbi məcburi tərk etməməsini dəstəkləyir. Hal-hazırda onların dəstəklədiyi 175 uşaq xarabalıqda və ya ona yaxın ərazilərdə özəl məktəblərdə təhsil alır. Şagirdlərin əksəriyyəti öz ailələrində ilk təhsil alanlardır və Kritinin işinin bir hissəsi də onların valideynlərinə təhsilin əhəmiyyətini izah etməkdən ibarətdir. Əvvəlcə layihə çox kiçik, sadəcə Kritinin heyəti üçün nəzərdə tutulmuşdu. Lakin indi onlar xarabalıqlarda yaşayan bir çox digər ailələrdən gələn, həmçinin onların fikrincə məktəbi tərk etmək təhlükəsi olan uşaqların oxuduqları məktəblərdən ərizələr qəbul edirlər.

# Mahita hüquq  və imkanların genişləndirilməsi layihəsi http://www.mahita.org/projects.html



“Mahita” – tərcümədə “bərpa olunma” deməkdir və onun işinin əsasını Heydarabad şəhər xarabalıqlarının inkişafı təşkil edir. Layihələrdən biri “Hüquq  və imkanların genişləndirilməsi” adlanır və onun əsas məqsədi təhsili tərk etmiş və işləyən uşaqları yenidən təhsilə cəlb etməkdir. O, bu məqsədə yerli hökümətin, müəllimlərin həmkarlar ittfaqının, xeyriyyə cəmiyyətlərinin, müəllimlərin, icmaların və uşaqların birgə əməkdaşlığı sayəsində nail olur.

Yerli icmaların tədris mərkəzləri uşaqların gəlişini asanlaşdırmaq məqsədilə onların yaşadıqları ərazilərə yaxın yerləşdirilib. Bu üsul uşaqların yenidən təhsilə cəlb olunmasında öz səmərəsini göstərib.